Səcdə etdiyin zaman əllərini yerə qoy və dirsəklərini qaldır

Bəra (Allah ondan razı olsun) rəvayət edir ki, Allahın Rəsulu (sallallahu aleyhi və səlləm) belə demişdir: "Səcdə etdiyin zaman əllərini yerə qoy və dirsəklərini qaldır".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (sallallahu aleyhi və səlləm) bu hədisdə namaz səcdəsi zamanı əllərin vəziyyətini izah etmişdir. Bu, əllərin ovuclarını yerə qoymaq və barmaqları birləşdirərək, onları qibləyə tərəf düz yönəltməklə, həmçinin dirsəkləri -qol və çiyin arasındakı oynağı- yerdən qaldırmaq və bədəndən aralı tutmaqla edilir.

http://sunnah.global/hadeeth/az/show/10927